**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI**

# A U D I T
# MEYARLARI

(Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının
qərarı ilə bəyənilmişdir/təsdiq edilmişdir)

Tərtib etdilər:


Azərbaycan Respublikası Auditorlar
Palatasının sədri, i.e.d, professor — Vahid Novruzov

Palata sədrinin elmi-metodik
məsələlər üzrə müşaviri — Nəcəf Talıbov

Auditin innovativ inkişafi, operativ
tənzimləmə və keyfiyyətin idarə edilməsi
idarəsinin rəisi — Qoşqar Əhmədov

Rəyçilər:

ANR AUDİT MMC-nin direktoru, auditor — Namiq Abbaslı,
Sərbəst auditor — Şamxal Kərimov


**Bakı – 2024**

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2024-cü il 30 iyul tarixli 367/3**
**nömrəli qərarı ilə bəyənilmişdir**

# AUDİT MEYARLARI

## Mündəricat


| | | |
|---|---|---|
| | Giriş | 2 |
| 1 | Audit və yeni dövrün çağırışları | 3 |
| 2 | Auditə təsir edən amillər və onun səmərəliyi | 6 |
| 3 | Auditin meyarları: mahiyyəti və əhəmiyyəti | 10 |
| 4 | Auditin qeyri-səlis meyarları | 14 |
| 5 | Meyarların seçimi | 18 |
| 6 | Auditor seçimi meyarlarının tətbiqi | 22 |

# Giriş

Audit riskləri müəyyən etmək və qiymətləndirmək, məlumatların bütövlüyünü və etibarlılığını təmin etmək üçün təşkilatın maliyyə hesabatlarının müstəqil şəkildə qiymətləndirilməsi prosesidir. Auditin məqsədi maraqlı tərəfləri təşkilatın maliyyə vəziyyəti və fəaliyyəti haqqında etibarlı məlumatlarla təmin etməkdir. Auditin uğurla aparılması üçün səmərəlilik, keyfiyyət, müstəqillik, səriştə və etika meyarlarına cavab vermək lazımdır. Auditor audit nəticələrinin etibarlılığını və obyektivliyini təmin etmək üçün müstəqil, səriştəli və etikalı olmalıdır.

Auditin aparılması üçün müvafiq meyarların müəyyən edilməsi uğurlu nəticənin əsasını təşkil edir. Meyarlar auditin məqsədinə uyğun olmalı, maraqlı tərəflərlə razılaşdırılmalı, həm də ölçülə və yoxlanıla bilən olmalıdır.

Audit meyarları sifarişçinin fəaliyyətini (sistemlərin və təcrübələrin adekvatlığını və qənaətliliyini, əməliyyatların səmərəliliyini və nəticəliliyini) qiymətləndirməyə imkan verən göstəricilərdir.

Audit meyarları tanınmış və nüfuzlu mənbələr əsasında hazırlanmalı, obyektiv, müvafiq, ağlabatan və əldə edilə bilən olmalıdır. Mümkün qədər obyektiv olmaqla, subyektiv şərh üçün imkan minimuma endirilməlidir.

Hər bir audit – yoxlama predmetinin meyarlar üzrə qiymətləndirilməsidir. Uyğun meyarların müəyyənləşdirilməsi audit uğurunun açarıdır. Meyarlar müəyyən edilmədən həyata keçirilən prosedurlar nəticəsiz qala və nəzərdə tutulan audit nəticəsi əldə olunmaya bilər. Auditorun peşəkar mühakiməsi kontekstində, audit tapşırığının əsaslandırılmış ölçülməsi və ya qiymətləndirmənin aparılması üçün müvafiq meyarlar tələb olunur.

Həmin meyarlar Sizə təqdim olunur.

## 1. Audit və yeni dövrün çağırışları

Audit təşkilatın maliyyə hesabatlarının, maliyyə əməliyyatlarının və daxili nəzarət prosedurlarının sistemli şəkildə yoxlanılması və qiymətləndirilməsidir. Müasir şəraitdə yeni dövrün çağırışlarını nəzərdə tutmalı olan audit – səhvləri, riskləri və nöqsanları müəyyən etmək, habelə onların aradan qaldırılması və əməliyyat səmərəliliyinin artırılması məqsədilə tövsiyələr vermək üçün təşkilatın maliyyə, əməliyyat və idarəetmə fəaliyyətinin müstəqil qiymətləndirilməsi prosesidir. Bu baxımdan demək olar ki, auditin məqsədi maliyyə məlumatlarının düzgünlüyünü və etibarlılığını təmin etmək, habelə mümkün səhvləri, saxtakarlıqları və qanun pozuntularını müəyyən etmək və onların qarşısını almaqdır.

Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) hesab edir ki, auditin maraqlı tərəfləri – xüsusən də direktorlar şuraları, idarəetmə orqanları və şirkət rəhbərliyi – auditi sadəcə olaraq maliyyə hesabatları üzrə auditor rəyi ilə nəticələnən komplayens və ya uyğunluq testi kimi yox, əlavə dəyər verən proses kimi nəzərdən keçirməlidir. Eyni zamanda, audit prosesi risklərin qiymətləndirilməsinə, proqnozlara və ehtimallara, daxili nəzarətə, məlumatların toplanmasına və rəhbərliyin zəruri səviyyədə cavabdeh olduğuna inamı artırmağa kömək edir. Bununla əlaqədar olaraq, auditor tərəfindən audit hesabatında daha çox şəffaflıq və dəyər təqdim etməyə imkan verən səylər dəstəklənməlidir (BAS 701 və BAS 3000-ə uyğun olaraq).

Müasir çağırışlar qarşısında, investorların və bütün maraqlı tərəflər qrupunun ehtiyaclarına daha yaxşı cavab verən təminat xidmətlərinin təkamülünü, o cümlədən daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin təmin olunmasını, dələduzluq hallarının aşkarlanmasını və ya məhkəmə ekspertizasının qiymətləndirilməsini, proqnozlaşdırıcı və ya davamlılığın qiymətləndirilməsi əməliyyatlarını (dividendlər ödəmək imkanı daxil olmaqla), rəqəmsal hesabat, pop-GAAP tədbirləri (Ümumi Qəbul Edilmiş Mühasibat Uçotu Prinsiplərinə əsaslanmayan) və korporativ hesabatları təkmilləşdirən hesabat və ya açıqlamaları (İnteqrasiya edilmiş Mühasibat Uçotu Beynəlxalq Sisteminə uyğun şəkildə təqdim edilən məlumatlar daxil olmaqla) nəzərdən keçirmək məqsədəuyğundur. Bu xidmətlərə bazar tələbatı, həmçinin belə məlumatların təqdim olunması və təmin edilməsi üçün çərçivə inkişaf etdikcə, təşkilatlar bu cür audit tapşırıqlarından faydalanmalı, tənzimləyici orqanlar isə nəzarət və əminliyin hansı səviyyəsinin daha uyğun olduğunu müəyyən etməlidirlər.

Müxtəlif ölkələrdə korporativ müflisləşmələr və qalmaqallar, o cümlədən son dövrlərdə Böyük Britaniyada Carillion Patisserie Valerie və London Capital & Finance

şirkətlərinin iflası, Cənubi Afrikanın dövlət şirkətləri Transnet, Eskom və South African Airways-in müflisləşməsi və Malayziyadakı 1MDB qalmaqalı audit proseslərinə diqqət yönəltmiş, habelə korporativ idarəetmədə ciddi çatışmazlıqları aşkar etmişlər.

Belə halların nəticəsində bütün dünyada auditin tənzimlənməsi və idarəçiliyinin islahatı ilə bağlı müzakirələr intensivləşmişdir.

Audit maliyyə hesabatlarına etimadı artırmaq məqsədi daşıyır, lakin o, rəhbərliyi və ya idarəetməyə məsul olan şəxsləri öz öhdəliklərindən azad etmir. Korporativ iflaslar və onların maliyyə hesabatlarına təsiri zəif idarəetmənin nəticələridir və şirkətlər keyfiyyətsiz audit nəticəsində uğursuzluğa məruz qalırlar.

Effektiv menecmentin təməlində direktorlar şurasının və idarə heyətinin davranış və hərəkətlərində əks olunan və bütün təşkilata aid edilən məqsəd, baxış, dəyərlər və etika dayanır.

Direktorlar şurası şirkətin maliyyə hesabatlarının düzgünlüyünə və dəqiqliyinə, o cümlədən maliyyə hesabatlarına daxili nəzarətin həyata keçirilməsinin təmin edilməsinə, müvafiq uçot siyasətinin qəbul olunmasına, müstəqil kənar auditorların təyin edilməsinə və onlara nəzarətə görə məsuliyyət daşıyır. Eyni zamanda nəzərə almaq lazımdır ki, bu məsuliyyətlər çox vaxt direktorlar şurası tərəfindən öz audit komitəsinə həvalə edilir. Lakin bu, direktorlar şurasını səhmdarlar və digər maraqlı tərəflər qarşısında öhdəlik və məsuliyyətlərindən azad etmir.

Audit (auditor yoxlaması) şirkətin maliyyə, əməliyyat və idarəetmə fəaliyyətini, onun müəyyən edilmiş standartlara və qanunvericiliyə uyğunluğunu yoxlamaqla və qiymətləndirməklə maliyyə hesabatlarının düzgünlüyünün və etibarlılığının təmin edilməsi ilə yanaşı müasir şəraitdə daha bir neçə aktual məqsədin reallaşmasını özündə ehtiva edir.

1. Dələduzluq hallarının və səhvlərin aşkarlanması və qarşısının alınması: Audit saxtalaşdırmaların, sövdələşmə sxemlərinin, daxili nəzarət sistemindəki zəifliklərin, həmçinin səhvlərin və sui-istifadə hallarının aşkar olunmsına kömək edir. Onlar şübhəli əməliyyatları və ya standart prosedurlara uyğunsuzluğu müəyyən etmək üçün təhlil və yoxlama aparırlar ki, bu da təşkilata saxtakarlığın qarşısını almağa kömək edir.

2. Daxili nəzarət sisteminin qiymətləndirilməsi: Auditorlar təşkilatın daxili nəzarət sistemini onun saxtakarlığın, səhvlərin və qanun pozuntularının aşkar edilməsi və qarşısının alınmasında, aktivlərin bütövlüyü və təhlükəsizliyinin təmin edilməsində nə dərəcədə effektiv olduğunu müəyyən etmək üçün qiymətləndirirlər.

3. Fəaliyyətin və səmərəliliyin qiymətləndirilməsi: Audit resurslardan səmərəli istifadəni, məhsuldarlığı, fəaliyyətin məqsəd və göstəricilərə uyğunluğunu, həmçinin idarəetmənin effektivliyini qiymətləndirməyə kömək edir.

4. Təkmilləşdirmə üçün tövsiyələrin verilməsi: Auditorlar öz müşahidə və təhlilləri əsasında təşkilata biznes proseslərini və nəzarəti təkmilləşdirmək, xərcləri azaltmaq üçün tövsiyələr verə bilər. Auditorlar sistemdə aşkar edilmiş zəif cəhətləri təhlil edir və onları aradan qaldırmaq üçün tövsiyələr verir ki, bu da təşkilata riskləri azaltmağa və əməliyyat səmərəliliyini artırmağa kömək edir.

5. Qanunlara və standartlara uyğunluq: Audit təşkilatın qanunvericiliyin, Mühasibat Uçotunun və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və digər aktların hüquqi və tənzimləyici tələblərinə cavab verməsini təmin etməyə kömək edir.

Beləliklə, təşkilatın auditi onun fəaliyyətinin şəffaflığını, etibarlılığını və səmərəliliyini təmin etmək, idarəetməni təkmilləşdirmək, maraqlı tərəflərin maraqlarını qorumaq, habelə daxili nəzarəti təmin etmək üçün zəruridir.

## 2. Auditə təsir edən amillər və onun səmərəliyi

**Auditə təsir edən amillər**

Auditin effektivliyini məhdudlaşdıran bir sıra amillər mövcuddur ki, bunlar da maliyyə hesabatlarının düzgünlüyünə dair ifadə edilmiş rəyin etibarlılığına, maraqlı tərəflərin inamına neqativ təsir göstərir:

• Sifarişçi subyektin fəaliyyəti ilə bağlı auditor təşkilatının məhdud məlumatlı olması;

• Auditorun öz peşəkar mülahizələri əsasında qərar qəbul etməsi prosesində audit işində qaçılmaz subyektivlik elementinin olması;

• Audit zamanı seçmə yanaşmanın tətbiqi;

• Mahiyyətinə görə faktların və rəylərin əsasını təşkil edən auditor sübutlarından istifadə etməsi;

• Risklərin idarə edilməsi mədəniyyətinin zəif inkişaf etməsi;

• İxtisaslı kadr çatışmazlığı;

• Şirkətlərin rəhbərliyi və işçiləri tərəfindən kənar və daxili auditorların işinin xüsusiyyətlərinin düzgün başa düşülməməsi;

• Auditorlar tərəfindən öz vəzifələrini yerinə yetirərkən obyektivlik prinsipinə, auditorların etik kodeksinə və keyfiyyətə riayət edilməməsi;

• Avtomatlaşdırılmış proseslərin tətbiqi;

• Auditorların davamlı ixtisas səviyyəsinin artırılmaması;

• Audit nəticələrinin şirkət rəhbərliyi tərəfindən dəstəklənməməsi;

• Beynəlxalq Audit Standartlarının tələblərinə əməl edilməməsi.

**Auditin səmərəliliyi**

Təcrübədə səmərəli auditi səmərəsiz auditdən ayırmaq çox çətindir. Bununla belə, auditin səmərəsizliyi adətən, sonradan sifarişçidə problemlər yarananda ortaya çıxa bilər. Əgər ciddi problem yoxdursa, auditin səmərəsizliyi faktı aşkar olunmaya bilər. Səmərəli audit düzgün və ədalətli mənzərəni təqdim edən maliyyə hesabatları, eləcə də şirkətin proseslərinin necə təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verir. Səmərəli audit üçün ilkin şərtlər audit şirkətinin və komandasının özlərinin adekvat olmasıdır. Auditor təşkilatlarının etibarlı prosedurlara – auditorların sifarişçi və sahə haqqında anlayışına, həmçinin mühakimə, obyektivlik və düşüncə müstəqilliyinə ehtiyacı var. Son bir neçə ildə daha sərt tənzimləmə tələbləri də auditorlara ciddi təsir göstərir. Audit tələblərinə cavab vermək üçün auditorın şablonlara və prosedurlara çox vaxt sərf etməsi ilə bağlı

problemlər var. Auditin sənədləşdirilməsinin təkmilləşdirilməsi, heç də həmişə auditin səmərəliliyinin artması ilə yekunlaşmır.

Mütəxəssislər təklif edirlər ki, auditin səmərəliliyini artırmaq üçün onu ölçmək məqsədəuyğundur. Bu baxımdan auditin səmərəliliyinin ölçülməsi prinsiplərini, səmərəli audit meyarlarını aydın şəkildə müəyyən etməklə auditin effektivliyini ölçmək olar.

Auditorun işinin nəticə və səmərəliliyini qiymətləndirilmək üçün bəzi anlayışlar və onların əsas fərqləri müəyyənləşdirilməlidir.

"Səmərəlilik" indikatoru qarşıya qoyulan məqsədə çatılmasının dəyərindən və metodundan asılı olmayaraq, ona nə dərəcədə nail olunmasını qiymətləndirir. Başqa sözlə desək, səmərəli iş başlanğıc nöqtəsi olan məqsəd və vəzifələri müəyyən etmək və istənilən mövcud yolla planlaşdırılan nəticəyə nail olmaq bacarığıdır.

Səmərəlilik göstəricisi auditorun məqsədə çatması baxımından qiymətləndirilir. Başqa sözlə, bu göstərici xüsusi olaraq xərclərə əsaslanır. Effektivliyi qiymətləndirmək üçün əldə edilən nəticələri onlara nail olmaq üçün çəkilən xərclərlə müqayisə edəcəyik. Effektiv proses ən az xərclə (vaxt, əmək, pul) ən yaxşı nəticələri verir.

Auditorun fəaliyyətini qiymətləndirmək üçün meyarlar aşağıdakı kimi ola bilər:

• Fəaliyyət standartlarına uyğunluq;

• Risk əsaslı audit planının hazırlanması, təsdiqi və icrası;

• Sifarişçinin razılığı (şikayətlərin, iradların və audit tövsiyələrinin icrasından imtinanın olmaması);

• Şirkətin gəlirlərinə birbaşa təsir edən praktiki tövsiyələr (auditorlara inam, audit (məsləhətləşmələr) zamanı verilən tövsiyələrin nisbəti və yerinə yetirilən tövsiyələr);

• Biznes mühitinə nəzarət nəticəsində şirkətin aktivlərinin qorunması və ya artırılması, xərclərin və itkilərin azaldılması, pul vəsaitlərinin artırılması və s.;

• Yoxlanılan tərəflə effektiv ünsiyyət və konstruktiv əlaqələr qurulması.

Auditin effektivliyini qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən istifadə etmək olar:

• Təsdiq olunmuş büdcənin icrası;

• Auditin vaxtında başlanması, işlərin son tarixlərinə və həcminə riayət olunması, əsas biznes proseslərini əhatə etmək üçün resursların planlaşdırılması və istifadəsi;

• Hesabatların təqdim olunması üçün son tarixlərə riayət edilməsi;

• İşçi heyətin peşəkarlığı və peşəkar inkişaf proqramının həyata keçirilməsi;

• Şirkətin daxili nəzarət sistemində risklərin və çatışmazlıqların vaxtında və düzgün müəyyən edilməsi;

• Audit risklərinə vaxtında fikir verilməsi;

• Biznes, şirkətin əməliyyat prosesləri və fəaliyyət sahəsi haqqında biliklərin mövcud olması;

• Audit məqsədlərinə nail olmaq üçün audit təşkilatının əməkdaşları tərəfindən xüsusi texniki bacarıq və texnologiyaların mövcudluğu və tətbiqi.

Qeyd etmək vacibdir ki, auditorların effektivliyini və səmərəliliyini qiymətləndirmək üçün universal meyarlar yoxdur. Xüsusi göstəricilərin tərkibi və hədəf dəyərləri şirkətin rəhbərliyi ilə razılaşdırılmaqla onun rəhbəri tərəfindən müəyyən edilir. Onlar əsas “müştərilər” (şirkətin direktorlar şurası və yüksək səviyyəli menecmenti) tərəfindən audit təşkilatlarının fəaliyyətinin təhlili üçün genişləndirilə və audit menecerləri və şirkətin idarəetmə səviyyəsi üçün müfəssəlləşdirilə bilər.

Bununla belə, seçilmiş meyarlardan asılı olmayaraq, effektiv və səmərəli auditin ümumiləşdirilmiş tərifi formalaşdırıla bilər: o, fəaliyyət standartlarına uyğun olaraq məqsədlərinə çatır, həmçinin şirkətin strukturunu və işinin xüsusiyyətlərini, şirkətin əsas biznes proseslərini və risklərin idarə edilməsi sistemlərinin yetkinliyini, daxili nəzarət və şirkətin korporativ idarəetməsini nəzərə alır.

## 3. Auditin meyarları: mahiyyəti və əhəmiyyəti

Auditor fəaliyyətinin əsas elementlərindən biri auditin müvafiq meyarlara əsaslanması tələbidir.

Audit meyarları auditin effektivliyini və onun potensial təsirini müəyyən edən əsas amildir. Audit prosedurları, fəaliyyətin meyarlara uyğun olub-olmadığını müəyyən etməyə yönəldilmişdir. Müvafiq meyarlar aydın, qısa, müvafiq, etibarlı, neytral, başa düşülən və tam olmalıdır. Əgər audit meyarları müvafiq deyilsə və ya natamamdırsa, o zaman audit çox güman ki, uğursuz olacaq.

Başqa sözlə, audit meyarları auditin keyfiyyətini qiymətləndirmək üçün istifadə olunan parametrlər və standartlar toplusudur. Onlar audit işinin nə dərəcədə effektiv və etibarlı şəkildə yerinə yetirildiyini müəyyən etməyə kömək edir.

Ümumi halda audit meyarlarını aşağıdakı kimi təsnifləşdirmək olar:

• Ən dəqiq meyarlar qanunvericiliyə, qaydalara və ya qəbul edilmiş peşəkar standartlara əsaslanan meyarlardır. Digər meyarlar həmçinin peşəkar birliklər, tanınmış ekspert təşkilatları və akademik ədəbiyyat kimi mənbələrdən əldə edilə bilər;

• Səmərəlilik auditi meyarlarının digər əsas mənbələri audit obyektinin rəhbərliyi tərəfindən qəbul edilmiş standartlar, tədbirlər və icra öhdəlikləri, o cümlədən, fəaliyyətə əsaslanan idarəetmə kontekstində müəyyən edilmiş xüsusi məqsədlər və ya tələblərdir;

• Göstərilən meyarlar mövcud və ya əlçatan deyilsə, tapşırıq qrupu, müqayisə edilə bilən təşkilatlarda tətbiq olunan, müqayisə və ya məsləhətləşmələr yolu ilə müəyyən edilmiş ən yaxşı təcrübələrə və ya tapşırıq qrupu tərəfindən fəaliyyətin təhlili vasitəsilə hazırlanmış standartlara yönəldilə bilər.

Sifarişçi təşkilat öz fəaliyyətini qiymətləndirmək üçün auditə dair əhəmiyyətli və xüsusi meyarlar müəyyən edirsə, auditorlar həmin meyarların tam və ağlabatan olmasına əminlik əldə etməlidirlər.

Bütövlükdə isə auditin məqsədi uyğunluq auditi və idarəetmə auditinə bölünə bilər.

Nəzərə almaq lazımdır ki, ISO 19011 (2011) "audit meyarları" terminindən istifadə edir ki, bu da spesifikasiyalara, təlimatlara və tələblərə istinad edir. İdarəetmə auditlərinə istehsal auditi, məhsul və proses auditi və təkmilləşdirmə auditləri daxildir. Həm uyğunluq auditi, həm də idarəetmə auditi inteqrasiya oluna bilər, lakin adətən təşkilatlar audit meyarlarından kənarda təkmilləşdirmə üçün sahələr təklif etməzdən əvvəl audit meyarlarına (yəni ISO 9001 uyğunluğu) əsasən uyğunluq auditini əsas götürürlər.

Auditin fəaliyyət meyarları auditorun öz vəzifələrini nə dərəcədə uğurla yerinə yetirdiyini və məqsədlərinə çatmasını müəyyən edir. Onlar həyata keçirilən auditin keyfiyyətini və effektivliyini qiymətləndirməyə kömək edir.

**Cədvəl 1. Auditin effektivliyinin əsas meyarları**

| Auditin effektivliyinin əsas meyarları |
|---|
| 1. Auditin tamlığı |
| 2. Əhəmiyyətlilik meyarları |
| 3. Müqayisə meyarları |
| 4. Qanunilik meyarları |
| 5. Daxili nəzarət sisteminin etibarlılığının meyarları |
| 6. Audit sübutlarının adekvatlığı |
| 7. Audit prosedurlarının standartlara uyğunluğu |
| 8. Auditin vaxtında aparılması |
| 9. Audit hesabatının aydınlığı və başa düşülməsi |

### Auditin tamlığı

Auditor kifayət qədər audit sübutu əldə etmək üçün bütün zəruri prosedurları və testləri yerinə yetirməlidir. Auditin tamlığı o deməkdir ki, auditor maliyyə hesabatları ilə bağlı bütün mühüm aspektləri və əməliyyatları nəzərdən keçirib, bütün lazımi təhlil və sınaqları həyata keçirib.

Tamlıq meyarları maliyyə hesabatlarında məlumatın nə dərəcədə tam və ətraflı təqdim edildiyini müəyyən edir. Auditor bütün əhəmiyyətli faktların və hadisələrin nəzərə alındığını və hesabatlarda əks etdirildiyini, məlumatın təhrif edilməsinə və ya gizlədildiyinə yol verilmədiyini yoxlayır.

### Əhəmiyyətlilik meyarları

Əhəmiyyətlilik meyarları maliyyə hesabatlarındakı hansı səhvlərin və ya çatışmazlıqların iqtisadi qərarların qəbul edilməsinə əhəmiyyətli təsir göstərə biləcəyini müəyyən edir. Auditor bu səhvlərin nə dərəcədə əhəmiyyətli olduğunu qiymətləndirir və onların təşkilatın maliyyə vəziyyətinə və fəaliyyətinə təsirini təhlil edir.

### Müqayisə meyarları

Müqayisə meyarları maliyyə hesabatlarının əvvəlki dövrlər və ya digər müəssisələrlə nə dərəcədə müqayisə oluna biləcəyini müəyyən edir. Auditor məlumatın müqayisə oluna biləcəyini və dəyişikliklərin əvvəlki dövrlərlə və ya digər şirkətlərlə müqayisədə təhlil oluna biləcəyini təmin etmək üçün eyni uçot metodları və prinsiplərindən istifadə olunduğunu yoxlayır.

**Qanunilik meyarları**

Qanunilik meyarları maliyyə hesabatlarının qanunvericiliyə və normativ tələblərə nə dərəcədə uyğun olduğunu müəyyən edir. Auditor mühasibat uçotunun qanuniliyini və düzgünlüyünü təmin etmək üçün onların qüvvədə olan qanunlara, standartlara və qaydalara uyğun tərtib edilməsini yoxlayır.

**Daxili nəzarət sisteminin etibarlılığının meyarları**

Daxili nəzarət sisteminin etibarlılıq meyarları təşkilatda daxili nəzarət sisteminin nə dərəcədə effektiv və etibarlı fəaliyyət göstərdiyini müəyyən edir. Auditor nəzarət sisteminin aktivlərin bütövlüyünü və qorunmasını nə dərəcədə təmin etdiyini qiymətləndirir, saxtakarlıq və səhvləri aşkar edir, onların qarşısının alınmasına dair tövsiyələr verir.

Bütün bu meyarlar auditora aparılan auditin keyfiyyətini qiymətləndirməyə və maliyyə hesabatlarının düzgünlüyünə və etibarlılığına dair rəy bildirməyə kömək edir.

**Audit sübutlarının adekvatlığı**

Auditor maliyyə hesabatlarında olan məlumatları təsdiq və ya təkzib etmək üçün kifayət qədər kəmiyyət və keyfiyyətli audit sübutları əldə etməlidir. Audit sübutlarının adekvatlığı o deməkdir ki, onlar maliyyə hesabatlarında irəli sürülən təsdiqləri dəstəkləmək və ya təkzib etmək üçün yetərli, etibarlı və məqsədəuyğundur.

**Audit prosedurlarının standartlara uyğunluğu**

Auditor öz işini qəbul edilmiş peşə etikasına və audit standartlarına uyğun yerinə yetirməlidir. Audit prosedurlarının uyğunluğu o deməkdir ki, auditor öz işinin müvafiq keyfiyyətini və müstəqilliyini təmin etmək üçün müəyyən edilmiş qayda və prosedurlara əməl edir.

**Auditin vaxtında aparılması**

Auditor öz işini müəyyən edilmiş müddət ərzində başa çatdırmalıdır. Auditin vaxtında aparılması o deməkdir ki, auditor bütün zəruri prosedurları yerinə yetirib və audit sifarişçisi tərəfindən müəyyən edilmiş müddət ərzində öz hesabatını təqdim edib.

**Audit hesabatının aydınlığı və başa düşülməsi**

Auditor öz nəticələrini və rəyini aydın və əlçatan formada təqdim etməlidir. Audit hesabatının aydınlığı o deməkdir ki, o, bütün lazımi məlumatları ehtiva edir, aydın və məntiqi strukturlaşdırılmışdır və geniş istifadəçilər tərəfindən başa düşülə bilər.

Yuxarıda göstərilənləri ümumiləşdirərək qeyd etmək olar ki, audit meyarları audit sübutlarının müqayisə edildiyi standart kimi istifadə olunan siyasət, prosedur və ya tələblərdir. Bəzən belə suallar yaranır: “Maliyyə hesabatlarının auditində hansı meyarlardan istifadə olunur?” və ya “Daxili audit meyarları hansılardır?” Aşağıda sadalanan audit meyarları müzakirə olunan bütün müxtəlif audit növləri üçün istifadə edilə bilər:

• Siyasətlər və prosedurlar;
• Daxili nəzarət;
• Tarixi fəaliyyətlər;
• Qanunlar və qaydalar;
• İstehsalçılar və təchizatçılar kimi kənar tərəflərlə müqavilələr;
• Müştərilər və sifarişçilərlə müqavilələr;
• Ən yaxşı sahə təcrübələri;
• Qəbul edilmiş sahə standartları;
• Ekspert rəyi

Tapşırıq üçün hansı meyarların istifadə ediləcəyini müəyyən etmək lazımdır, çünki onların heç də hamısı bəyan edilmiş audit məqsədlərinə nail olmaq və audit nəticələrinin nəzərdə tutulan maraqlı tərəflərin ehtiyaclarını ödəmək üçün zəruri, müvafiq və etibarlı olmaya bilər. Auditin uğurlu olması üçün meyarlar tapşırığın icrasına başlamazdan əvvəl müvafiq tərəflər tərəfindən razılaşdırılmalıdır. Əksər hallarda bunlar yoxlanılan tərəf və auditorlardır. Bəzi hallarda üçüncü tərəflərlə də meyarların razılaşılması zəruri olur. Bu meyarlar adətən audit tapşırığı məktubunda qeyd olunur.

Bütün hallarda nəzərə alınmalıdır ki, uyğun meyarlarla təmin edilmiş istinad çərçivəsi olmadan əldə edilən istənilən nəticə mənfi qarşılana bilər. Meyarların uyğunluğu kontekstdən asılıdır; yəni tapşırığın şərtləri kontekstində müəyyən edilir. Hətta eyni mövzu üçün fərqli ölçmələr və ya hallar yaradacaq müxtəlif meyarlar ola bilər. Məsələn, auditor müştəri məmnuniyyətinin qiymətləndirilməsi üçün mövzu meyarlarından biri kimi bu məmnunluğa cavab verən müştəri şikayətlərinin, başqa bir mütəxəssis isə ilkin alışdan sonra üç ay ərzində təkrar alışların sayını seçə bilər. Meyarların uyğunluğu etimad səviyyəsindən asılı deyil, yəni meyarlar ağlabatan əminlik tapşırığı üçün uyğun deyilsə, onlar da məhdud əminlik tapşırığı üçün uyğun deyildir.

## 4. Auditin qeyri-səlis meyarları

Ölçülə bilən audit meyarları ilə yanaşı, qeyri-səlis meyarların əhəmiyyəti də müasir tələblər baxımından daha da artmaqdadır. Bunlara ilk növbədə auditin keyfiyyət meyarları aid edilə bilər.

**Cədvəl. Auditin keyfiyyət meyarları**

| Auditin Keyfiyyət Meyarları | |
|---|---|
| Auditorun müstəqilliyi | Auditor yoxlanılan təşkilatdan və onun rəhbərliyindən müstəqil olmalıdır. Bu o deməkdir ki, auditi apararkən auditorun obyektivliyinə və qərəzsizliyinə təsir edə biləcək hər hansı maliyyə, şəxsi və ya peşəkar maraqları olmamalıdır. |
| Auditorun səriştəliliyi | Auditor öz vəzifələrini yerinə yetirmək üçün kifayət qədər bilik, bacarıq və təcrübəyə malik olmalıdır. O, mühasibat uçotu prinsipləri, audit standartları və auditi tənzimləyən qanunlar haqqında hərtərəfli biliyə malik olmalıdır. Bundan əlavə, auditor audit sahəsində ən son dəyişikliklərdən və tələblərdən xəbərdar olmaq üçün öz bilik və bacarıqlarını daim təkmilləşdirməlidir. |
| Audit etikası | Auditor öz işində yüksək etik standartları qorumalıdır. O, dürüst, obyektiv və vicdanlı olmalı, maraqların toqquşmasından qaçmalı və audit prosesi zamanı əldə edilmiş məxfi məlumatları açıqlamamalıdır. Auditor, həmçinin auditor təşkilatları və tənzimləyici orqanlar tərəfindən müəyyən edilmiş bütün peşə etikası prinsiplərinə əməl etməlidir. |
| Auditin planlaşdırılması və təşkili | Auditor effektiv və keyfiyyətli auditin aparılması üçün öz işini düzgün planlaşdırmalı və təşkil etməlidir. Buraya auditin məqsəd və həcminin müəyyən edilməsi, audit planının işlənib hazırlanması, resursların bölüşdürülməsi və irəliləyişi izləmək üçün mərhələlərin müəyyən edilməsi daxildir. |
| Audit sübutu | Auditor maliyyə hesabatlarında olan məlumatları təsdiq və ya təkzib etmək üçün kəmiyyət və keyfiyyətdə kifayət qədər sübuta malik olmalıdır. Sübutlar sənədlər, qeydlər, daxili və xarici məlumat mənbələri kimi müxtəlif mənbələrdən əldə edilə bilər. Ağlabatan nəticələr çıxarmaq üçün auditor sübutların etibarlılığını və yetərliliyini qiymətləndirməlidir. |
| Audit hesabatının aydınlığı və başa düşülməsi | Auditor öz nəticələrini aydın və əlçatan formada təqdim etməlidir. Audit hesabatının aydınlığı o deməkdir ki, hesabat bütün lazımi məlumatları ehtiva edir, məntiqi baxımdan strukturlaşdırılıb və geniş istifadəçilər tərəfindən başa düşülə bilər. |

Bütün bu meyarlar auditin effektivliyini qiymətləndirməyə və maliyyə hesabatının keyfiyyətinə və daxili nəzarət sisteminə rəy verməyə kömək edir.

## Auditorun müstəqillik meyarları

Auditorun müstəqilliyi onun peşəkar fəaliyyətinin əsas prinsiplərindən biridir. Müstəqillik o deməkdir ki, auditi həyata keçirərkən auditor öz obyektivliyinə və qərəzsizliyinə təsir edə biləcək hər hansı kənar təsirlərdən və ya maraqlardan azad olmalıdır. Auditorun müstəqilliyi öz strukturunda aşağıdakı bir neçə elementi də ehtiva edir:

**Müştəridən müstəqillik**

Auditor müştəridən müstəqil olmalıdır, yəni maraqlar toqquşması yarada biləcək və ya onun obyektiv qərarlar qəbul etmə qabiliyyətinə təsir edə biləcək maliyyə, şəxsi və ya peşəkar əlaqələri olmamalıdır. Auditor müştərinin səhmdarı, borclusu və ya kreditoru ola bilməz.

**Müştəri rəhbərliyindən müstəqillik**

Auditor öz işinə təsir və ya təzyiqdən qaçmaq üçün müştərinin rəhbərliyindən müstəqil olmalıdır. Auditorun müştərinin rəhbərliyi ilə maraqlar toqquşması yarada biləcək şəxsi və ya peşəkar münasibətləri olmamalı və ya auditorun obyektiv qərarlar qəbul etmə qabiliyyətinə təsir göstərməməlidir.

**Maraqlı tərəflərdən müstəqillik**

Auditor maraqların toqquşması və ya işinə təsir etməmək üçün səhmdarlar, kreditorlar və ya investorlar kimi maraqlı tərəflərdən müstəqil olmalıdır. Auditorun maraqlı tərəflərlə onun obyektivliyinə və qərəzsizliyinə təsir edə biləcək maliyyə və ya şəxsi əlaqələri olmamalıdır.

**Audit firmasından müstəqillik**

Auditor işlədiyi audit firmasından müstəqil olmalıdır. Bu o deməkdir ki, auditorun audit firması ilə maraqlar toqquşması yarada biləcək və ya onun obyektiv qərarlar qəbul etmək qabiliyyətinə təsir edə biləcək maliyyə və ya şəxsi əlaqələri olmamalıdır.

**Xarici təsirlərdən müstəqillik**

Auditor siyasi və ya iqtisadi təzyiq kimi xarici təsirlərdən uzaq olmalıdır. O, obyektiv qərarlar qəbul etmək azadlığına malik olmalı, öz müstəqilliyinə və qərəzsizliyinə təsir edə biləcək təsirlərə məruz qalmamalıdır.

Bu müstəqillik meyarlarına uyğunluq auditin keyfiyyətini və audit nəticələrinə inamı təmin etmək üçün vacibdir.

## Auditorun səriştəlilik meyarları

**Təhsil və təlim**

Auditor mühasibat uçotu və audit sahəsində müvafiq təhsilə və peşəkar hazırlığa malik olmalıdır. O, auditor kimi vəzifələrini yerinə yetirmək üçün lazım olan bilik və bacarıqlara malik olmalıdır.

**Təcrübə**

Auditor öz vəzifələrini səmərəli şəkildə yerinə yetirmək üçün audit sahəsində kifayət qədər təcrübəyə malik olmalıdır. İş təcrübəsi auditora müxtəlif sahələrin və fəaliyyət növlərinin xüsusiyyətlərini daha yaxşı başa düşməyə, habelə öz biliklərini praktikada tətbiq etməyə imkan verir.

**Peşəkar İnkişaf**

Auditor mühasibat uçotu və audit sahəsində ən son yeniliklərdən xəbərdar olmaq üçün öz peşəkar bacarıq və biliklərini daim inkişaf etdirməlidir. O, peşəkar təlimlərdə, seminarlarda, konfranslarda iştirak etməli, həmçinin peşəkar nəşrlərdən və dərsliklərdən cari məlumatları əldə etməlidir.

**Etik prinsiplər**

Auditor öz işində yüksək etik prinsiplərə əməl etməlidir. Qiymətləndirmə və tövsiyələrində dürüst, qərəzsiz və ədalətli olmalıdır. O, həmçinin audit prosesi zamanı əldə etdiyi məlumatların məxfiliyini qorumalı və müştərinin razılığı olmadan bu məlumatları açıqlamamalıdır.

**Ünsiyyət bacarıqları**

Auditor müştərilər, həmkarlar və digər maraqlı tərəflərlə səmərəli qarşılıqlı əlaqə yaratmaq üçün yaxşı ünsiyyət bacarığına malik olmalıdır. Mürəkkəb audit anlayışlarını və nəticələrini aydın və başa düşülən şəkildə izah etməyi bacarmalı, başqalarının rəy və təkliflərini dinləməyi və nəzərə almağı bacarmalıdır.

Bu səriştə meyarlarına uyğunluq auditin keyfiyyətini və audit nəticələrinə inamı təmin etmək üçün vacibdir.

## Auditin Etik Meyarları

Auditorlar öz işlərinin müstəqilliyini, obyektivliyini və etibarlılığını təmin etmək üçün yüksək etik standartlara riayət etməlidirlər. Etik audit üçün aşağıdakı meyarlar zəruridir:

**Müstəqillik**

Auditor ictimai maraqlardan çıxış etməli və peşəkar orqanlar tərəfindən müəyyən edilmiş müstəqillik prinsiplərinə əməl etməlidir.

**Məxfilik**

Auditor audit prosesi zamanı əldə etdiyi məlumatların məxfiliyini təmin etməlidir. O, qanunla və ya peşəkar standartların tələb etdiyi hallar istisna olmaqla, sifarişçinin məxfi məlumatlarını onun razılığı olmadan üçüncü şəxslərə açıqlamamalıdır. Auditor icazəsiz girişin və ya istifadənin qarşısını almaq üçün məxfi məlumatların təhlükəsizliyini və qorunmasını təmin etməlidir.

**Dürüstlük və Dəqiqlik**

Auditor öz hərəkət və qərarlarında dürüst və dəqiq olmalı, dələduzluq, rüşvətxorluq və ya digər qanunsuz hərəkətlərə yol verməməlidir. Auditor obyektiv təhlilə əsaslanan dəqiq və etibarlı məlumat verməlidir. O, auditor peşəsinə inamı və hörməti qorumaq üçün peşəkar standartlara və etik standartlara əməl etməlidir.

**Peşəkar səriştə**

Auditor öz işini keyfiyyətlə yerinə yetirmək üçün yüksək peşəkar səriştə və biliyə malik olmalı, audit sahəsində ən son yeniliklərdən xəbər tutmaq üçün öz bacarıq və biliklərini daim təkmilləşdirməlidir. Auditor həmçinin peşəkar təşkilatlar tərəfindən müəyyən edilmiş peşə standartlarına və davranış qaydalarına əməl etməlidir.

Bu etik meyarlara uyğunluq audit praktikasının ayrılmaz hissəsidir və auditor peşəsinə inamın qorunmasına töhfə verir.

Auditorlar üçün praktik əhəmiyyətə malik olan "Audit meyarları" mövzusunda müqayisəli cədvəl aşağıda verilmişdir.

| Meyar | Meyar tərifi | Xüsusiyyətlər |
|---|---|---|
| Auditin məqsədi | Auditin məqsəd və vəzifələrinin müəyyən edilməsi | Maliyyə hesabatlarının düzgünlüyünün və etibarlılığının təmin edilməsi<br>Saxtakarlıq və səhvlərin aşkarlanması və qarşısının alınması<br>Təşkilatın səmərəliliyinin artırılması |
| Audit meyarları | Auditin aparıldığı standartlar və qaydalar | Auditorun müstəqilliyi<br>Auditor səriştəsi<br>Etik audit |
| Auditin effektivlik meyarları | Həyata keçirilən auditin effektivliyinin qiymətləndirilməsi | Əhəmiyyətli səhvlərin və uyğunsuzluqların müəyyən edilməsi<br>İdarəetmə və nəzarət sisteminin təkmilləşdirilməsi üçün tövsiyələr<br>Hesabatın vaxtında və tam olması |
| Auditin keyfiyyət meyarları | Həyata keçirilən auditin keyfiyyətinin qiymətləndirilməsi | Auditin standartlara və qaydalara uyğunluğu<br>Auditorun səriştəsi və təcrübəsi<br>Adekvat sübut və təhlilin mövcudluğu |

| | | |
|---|---|---|
| Auditorun müstəqillik meyarları | Auditorun yoxlanılan təşkilat-dan müstəqillik dərəcəsinin qiymətləndirilməsi | Maraqların toqquşması yoxdur<br>Müstəqil qiymətləndirmənin və təsdiqin mövcudluğu<br>Etik standartlara və prinsiplərə uyğunluq |
| Auditorun səriştəlilik meyarları | Auditorun peşəkar bacarıq və biliklərinin qiymətləndirilməsi | Müvafiq təhsil və sertifikatın olması<br>Audit sahəsində təcrübə<br>Bilik və bacarıqların daim yenilən-məsi |
| Etik audit meyarları | Auditorun etik prinsiplərə uy-ğunluğunun qiymətləndirilməsi | Məxfilik və məlumatın saxlanması<br>Qiymətləndirmədə qərəzsizlik və obyektivlik<br>Peşəkar və etik standartlara uyğun-luq |

**5. Meyarların seçimi**

Beynəlxalq audit praktikası göstəriri ki, meyarlar müxtəlif yollarla seçilə və ya hazırlana bilər, o cümlədən:

- Qanunda və ya qaydada təsbit edilmişdir;
- Şəffaf prosedura riayət edən səlahiyyətli və ya tanınmış ekspert təşkilatları tərəfindən qəbul edilmişdir;
- Bir qrup tərəfindən kollektiv şəkildə fərdi məhdud istifadə üçün hazırlanmışdır;
- Elmi jurnallarda və ya kitablarda dərc edilmişdir;
- Tapşırığın konkret şərtləri altında tapşırıq predmetinin ölçülməsi və ya qiymətləndirilməsi məqsədi ilə xüsusi hazırlanmışdır.

Meyarların necə işlənib hazırlanması və uyğunluğu qiymətləndirmə üçün mütəxxəsisin gördüyü işə təsir göstərə bilər.

Bəzi hallarda qanun və ya qaydalar tapşırıq üçün istifadə olunacaq meyarları müəyyən edir. Belə qanun və ya qaydalar olmadıqda, bu cür meyarlar, nəzərdə tutulan istifadəçilərin informasiya ehtiyaclarına cavab verirsə, şəffaf qanuni proseduru izləyən səlahiyyətli və ya tanınmış ekspert təşkilatları tərəfindən irəli sürülən meyarlar məqsədəuyğun hesab edilir. Bu meyarlar müəyyən edilmiş kriteriyalar kimi tanınır. Əsas obyekt üçün müəyyən edilmiş meyarlar olsa belə, fərdi istifadəçilər öz xüsusi məqsədləri üçün müxtəlif meyarları əsas götürə bilərlər. Bununla belə, spesifik istifadəçilər, məsələn, prudensial nəzarətlə bağlı spesifik məlumat ehtiyaclarına uyğun olaraq daha ətraflı meyarlar toplusu hazırlaya bilər. Belə hallarda, tapşırığın şərtlərinə uyğun olarsa, əminlik hesabatında qeyd oluna bilər ki, meyarlar qanunda və ya normativ sənədlərdə müəyyən edilməyib və ya şəffaf prosedura riayət edən səlahiyyətli və ya tanınmış ekspert təşkilatları tərəfindən verilməyib.

Əgər meyarlar tapşırığın konkret şərtlərində tapşırıq predmetini ölçmək və qiymətləndirmək üçün xüsusi olaraq hazırlanıbsa və nəzərdə tutulan istifadəçilərdə yanlış təsəvvür yaradan əminlik hesabatı ilə nəticələnərsə, onlar tətbiq edilməməlidir.

Meyarlar nəzərdə tutulan istifadəçilər üçün əlçatan olmalıdır ki, onlar tədqiqatın əsas mövzusunun necə ölçüldüyünü və ya qiymətləndirildiyini başa düşə bilsinlər. Meyarlar nəzərdə tutulan istifadəçilər üçün aşağıdakı üsullardan biri və ya bir neçəsi ilə təqdim olunur:

a) ictimaiyyətə açıqlama yolu ilə;

(b) əminlik hesabatına aydın şəkildə daxil etməklə.

(c) ümumi mənada (məs. vaxtın saat və dəqiqələrlə ölçülməsi meyarı).

Tətbiq olunan meyarların təsviri nəzərdə tutulan istifadəçiləri tədqiqatın əsas predmetinin qiymətləndirildiyi çərçivə haqqında məlumatlandırır və bu, xüsusi məsələlərin necə qiymətləndirilə biləcəyi ilə bağlı müxtəlif meyarlar arasında əhəmiyyətli fərqlər olduqda xüsusilə vacibdir.

Tətbiq olunan meyarların müvafiqliyi yalnız o halda münasib hesab edilir ki, bu meyarların hamısı səmərəli nətisə versin.

Təminat hesabatı tapşırığın predmetinin qiymətləndirildiyi müvafiq meyarları müəyyən edir ki, nəzərdə tutulan istifadəçilər təcrübəçinin gəldiyi nəticənin əsasını başa düşə bilsin. Müvafiq meyarlar, asanlıqla əldə edilə bilən mənbədən əldə olunduğu halda təminat hesabatına daxil edilə və ya onlara istinad edilə bilər. Belə hallarda aşağıdakılar açıqlanmalıdır:

• Tətbiq olunan meyarların mənbəyi və tətbiq oluna bilən meyarların qanunda və ya qaydada əks olunub-olunmaması, şəffaf müvafiq proseduru izləyən səlahiyyətli, habelə, tanınmış ekspert qurumları tərəfindən verilib-verilməməsi, yəni onların mövzu kontekstində meyarlar qismində müəyyən edilib-edilməməsi (əgər yoxsa, niyə uyğun hesab edildiyinin təsviri).

• Məsul tərəfin meyarların uyğunluğunu qəbul etdiyi və ya təsdiqin alınmadığı barədə bəyanatı.

• Müvafiq meyarlar bir neçə üsul arasında seçim etməyə imkan verdikdə istifadə edilən ölçmə və ya qiymətləndirmə metodları.

• Tapşırığın şərtlərində tətbiq olunan meyarların tətbiqi zamanı edilən hər hansı əhəmiyyətli şərhlər.

• İstifadə olunan ölçmə və ya qiymətləndirmə metodlarında hər hansı dəyişikliyin olub-olmaması.

**Meyarların mənbələri**

Audit komandası müvafiq meyarları seçərkən və ya işləyib hazırlayarkən bir sıra müxtəlif mənbələrə müraciət edə bilər:

• Müəssisənin fəaliyyətini tənzimləyən qanunlar və normativ aktlar;

• Dövlətin və idarə heyətinin siyasəti;

• Sektorun ən yaxşı təcrübələri;

• Qanunvericilik və ya mərkəzi icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən qərarlar;

• Təşkilat və ya hökumət tərəfindən istifadə olunan əsas fəaliyyət göstəriciləri;

• Tədqiqat nəticəsində hazırlanmış və ya peşəkar və/və ya beynəlxalq təşkilatlar tərəfindən istifadə edilən standartlar;

• Müqayisə edilmiş şirkətlər üçün yaxşı fəaliyyət göstəriciləri;

• Müəssisənin planları, müqavilələr və büdcələr;

• Oxşar fəaliyyət təhlillərində istifadə olunan meyarlar;

• Mövzu üzrə ekspertlərlə məsləhətləşmələr.

Audit qrupu meyarların mənbəyini və uyğunluğunu təsdiqləməyə məsuldur.

Əksər vaxt meyar birdən çox mənbəyə əsaslanır. Odur ki, auditorlar meyarın bir neçə mənbədən necə əldə edildiyini sənədləşdirməlidirlər.

**Audit meyarları müxtəlif yollarla seçilə və ya hazırlana bilər:**

- Meyarlar çox vaxt qanun və qaydalara əsaslanır.
- Onlar çox vaxt mərkəzi agentlik və ya təşkilatların siyasətlərindən, direktivlərindən, təlimatlarından və planlarından yaranır. Bu tip meyarlar yalnız korporativ istifadə üçün qrup tərəfindən kollektiv şəkildə hazırlanır və kənara açıqlanmır.

Meyarlar tanınmış beynəlxalq qurumların və ya ekspertlərin, həmçinin ölkənin üzərinə götürdüyü beynəlxalq öhdəliklərə, məsələn Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə əsaslana bilər.

Bəzi hallarda meyarlar tapşırığın konkret şərtlərində tapşırıq predmetini ölçmək və ya qiymətləndirmək üçün xüsusi hazırlanır.

## 6. Auditor seçimi meyarlarının tətbiqi

Auditor seçimi onun peşəkarlığını və səriştəsini müəyyən etməyə kömək edəcək bir sıra amillər nəzərə alınmaqla aparılmalıdır.

Auditor seçərkən nəzərə alınmalı olan altı vacib meyar aşağıdakılardır:

1. Lisenziyalaşdırma (icazə) və Sertifikatlaşdırma: Auditorun onun səriştəsini və peşənin tələblərinə uyğunluğunu təsdiq edən zəruri lisenziya (icazə) və sertifikatlara malik olub-olmamasını mütləq yoxlayın. Sertifikatlı peşəkar auditoru seçmək tövsiyə olunur.

2. Təcrübə və reputasiya: Auditorun portfelini, müştərilərin tövsiyə və rəylərini öyrənməklə onun təcrübəsi və nüfuzu barədə məlumat əldə etməyə çalışın. Nəzərə alın ki, xüsusi biznes sahələrində təcrübə, uğurlu audit işini yerinə yetirməyə imkan yarada bilər.

3. Firmanın Ölçüsü və Resursları: Audit firmasının ölçüsünü və mövcud resursları qiymətləndirin. Böyük firmalar daha çox təcrübəyə və mütəxəssislərə malik olur ki, bu da mürəkkəb tapşırıqları yerinə yetirərkən faydalı ola bilər.

4. Biznesinizin anlaşılması: Auditor seçərkən, onların biznesinizin xüsusiyyətlərini və tələblərini başa düşmək qabiliyyətinə baxın. Auditor sizin sahəniz və fəaliyyət növü ilə nə qədər yaxşı tanışdırsa, o, audit işini bir o qədər səmərəli və effektiv yerinə yetirə biləcək.

5. Xidmətlərin dəyəri: Büdcənizi müəyyənləşdirin və auditorların xidmətlərinin dəyərini müqayisə edin. Ancaq unutmayın ki, auditor seçərkən xidmətlərin dəyəri əsas meyar deyil. Keyfiyyət və bacarıq daha yüksək prioritet təşkil etməlidir.

6. Məxfilik və Etika: Auditorun məxfilik və etika baxımından qüsursuz reputasiyaya malik olmasına əmin olun. O, peşənin qaydalarına ciddi şəkildə riayət etməli, həmçinin məxfi məlumatlarınızın qorunmasını təmin etməlidir.